

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 193 (23.835)

19 oktyabr 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müstəqilliyin bərpasının 30-cu ildönümü münasibətilə Azərbaycan xalqına müraciət edib. Müraciətdə 30 illik müstəqillik tariximizdə ilk dəfə olaraq müstəqilliyimizin bərpasının ildönümünü ərazi bütövlüyünü təmin etmiş qalib xalq kimi qarşıladığımızı bildirən dövlət başçısı yaxın tariximizin bu əlamətdar hadisəsi münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edib.

* * *

Prezident İlham Əliyev oktyabrın 18-də Türkiyə Respublikasının əmək və sosial müdafiə naziri Vedat Bilgini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti həmin gün Qətər Dövlətinin Baş nazirinin müavini, xarici işlər naziri, Qətər-Azərbaycan Hökumətlərarası Komissiyanın həmsədri Məhəmməd bin Əbdülrəhman Al Taninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 16 oktyabr tarixli sərəncamları ilə Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə bir qrup mədəniyyət xadimi orden, medal və fəxri adlara layiq görülmüşdür. Təltif edilənlər arasında Naxçıvan Muxtar Respublikasının mədəniyyət işçiləri də vardır:

**Babayev Fikrət Həsən oğlu**

"Əməkdar rəssam" fəxri adı ilə,

**Qardaşbəyova Nazilə Adəm qızı**

"Əməkdar mədəniyyət işçisi" fəxri adı ilə,

**Fətəliyev Zakir Məhərrəm oğlu**

**Tağıyev Qəhrəman Fərman oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

## Naxçıvanda "Arıçılıq məhsulları-bal satış yarmarkası" keçirilib

Muxtar respublikanın iqlim şəraiti, zəngin bitki örtüyü bu ərazidə qədim zamanlardan bəri insanların arıçılıq təsərrüfatı ilə məşğul olmasına əlverişli şərait yaratmışdır. Bu gün dövlət tərəfindən həyata keçirilən aqrar islahatlarda arıçılığın inkişafına xüsusi önəm verilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası arıçılıq təsərrüfatlarının sayının ilbəil artmasına səbəb olmuşdur. Naxçıvan şəhərində keçirilən "Arıçılıq məhsulları-bal satış yarmarkası" da arıçılar üçün geniş imkanlar açır.





Oktyabrın 16-da "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Arıçılıq məhsulları-bal satış yarmarkası" keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov satış yarmarkasında iştirak etmişdir.



Naxçıvan Dövlət Universitetinin müəllimləri bal süzgəci, yeni nəsil pətəklər, vərəmum toplayan, çərçivə teli gərmə, çiçək tozu toplayan alətlər, arıçının rahat işləməsi üçün istifadə ediləcək yanmaz əlcəklər, yabanı arı tələsi, yem qabları, arıçının iş masası, elektrikli bal isitmə və çökdürmə qazanı, balı süzmə aparatı, eləcə də arı məhsullarından hazırlanan dodaq balzamı, gil maskası, əl kremi, müxtəlif faizli spreylər, kəklikotulu, nanəli, propolis və müxtəlif çeşiddə sabunlar haqqında ətraflı məlumat vermişlər.

Ali Məclisin Sədri arıçılarla söhbət etmiş, bal və arıçılıq məhsullarından almış, onların qayğıları ilə maraqlanmışdır.

Baxış zamanı məlumat verilmişdir ki, satış yarmarkasına muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən 301 arıçı tərəfindən 17 tondan artıq süzmə, 3 tondan artıq şan bal, arı südü, mum, vərəmum, çiçək tozu, güləm, bal arağı və baldan hazırlanmış şirniyyatlar çıxarılmışdır. Naxçıvan balı öz dadı, ətri, görünüşü, həmçinin bir sıra keyfiyyət göstəricilərinə görə Azərbaycanda, eyni zamanda qonşu ölkələrdə yaxşı tanınır və yüksək qiymətləndirilir. Son illər Naxçıvanda arıçılıq sahəsində aparılan elmi araşdırmaların həcmi çoxalmış, bu sahəyə dair kitab və dərsliklər nəşr olunmuşdur. Balla yanaşı, vərəmum, çiçək tozu, güləm, arı südü və digər arıçılıq məhsulları da yüksək tibbi əhəmiyyətə malikdir.



Naxçıvan şəhərindən olan arıçı Məhərrəm Eyvazov minnətdarlıq edərək demişdir: "Bu gün bizim üçün ikiqat bayramdır.

Ardı 2-ci səhifədə





Tarixi Qələbəni qeyd edirik. Bu qələbənin qazanılmasında Naxçıvandan olan igid oğulların da payı vardır. Bunu ölkə başçısı cənab İlham Əliyev bu il mayın 10-da Naxçıvana səfəri zamanı qeyd etmiş, Naxçıvanın sürətlə inkişaf etdiyini bildirmişdir. Biz də bu inkişafdan bəhrələnərək təsərrüfatımızı genişləndiririk".

"Naxçıvan məhsulları" publik hüquqi şəxsin stendində məlumat verilmişdir ki, stenddə 5 müəssisənin 8 məhsulu sərgilənir, müxtəlif çəkilərdə olan ballardan hədiyyəliklər nümayiş etdirilir.

Günnüt kəndindən olan arıçı Fikrət



Məmmədov minnətdarlıq edərək demişdir: "Bu gün arıçılar üçün hər cür şərait yaradılmışdır. Günnüt kəndinin arıçıları da bu şəraitdən səmərəli istifadə edərək kənd təsərrüfatı üçün əhəmiyyətli olan bu sahəni inkişaf etdirməyə çalışırlar".

Cəlilkənddən olan arıçı Familə Mirzəyeva demişdir: "Muxtar respublikada həyata ke-



çirilən tədbirlər ailə təsərrüfatçılarını daha da ruhlandırır, onlar məhsullarını artırırlar. 20 arı ailəm var, 1 hektar sahədə sarımsaq əkmişəm. Gələcəkdə 3 hektarda taxıl əkməyi nəzərdə tuturam. Muxtar respublikada ailə təsərrüfatçıları üçün hər cür şərait yaradılır, yeni iş yerləri açılır. Mən də istifadəyə verildikdən sonra Şərur Sənaye Məhəlləsində istehsal olunacaq qarğıdalı yağına öz töhfəmi vermək üçün gələcəkdə, eyni zamanda qarğıdalı əkməyi planlaşdırıram".

Şələsüz kəndindən olan arıçı Ehtibar Məmmədov minnətdarlıq edərək demişdir ki, bu il son 10 ilin ən yüksək məhsulunu götürmüşük. İndi bazarlarda kənd adamlarının istehsal etdikləri yerli məhsullara üstünlük verilməsi, həm də satış yarmarkalarının keçirilməsi məhsulumuzun daha çox satılması ilə nəticələnir. Bu da təsərrüfatımı genişləndirməyə imkan verir. Bir sıra arıçılıq məhsulları ixrac edir, bazarlarda heç bir çətinlik çəkmədən satışını həyata keçiririk. Artıq yeni layihə əsasında ana arı yetişdirməyə hazırlaşırıq.

Babək rayon Gərməçataq kənd sakini Mətləb Quliyev öz təsərrüfatının inkişafından danışaraq demişdir ki, yaradılan şəraitin nəticəsidir ki, 5-6 il əvvəl 20 arı ailəm olmasına baxmayaraq, hazırda 70 arı ailəsi saxlayıram. Eyni zamanda ucqar dağ kəndi olan Gərməçataqda quruculuq tədbirlərinin həyata keçirilməsi nəticəsində 3 ailə geri qayıtmış, kənddə hazırda 2 yeni ev inşa olunur.

Sədərək rayonundan olan arıçı Nadir Bağırov demişdir ki, arıçı sahibkarların dərmanla təmin edilməsi, hər bir arı ailəsinə görə subsidiyanın və arıçılara güzəştli kreditlərin verilməsi bu sahənin inkişafına geniş imkanlar açmışdır. Məhsullarımızı rahat şəkildə satır, büdcəmizi zənginləşdiririk. Eyni zamanda təsərrüfat adamlarının əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Bu da məsuliyyətimizi artırır, daha həvəslə işləyirik. Gün o gün olsun, Kərki balının satışını həyata keçirək.

Satış yarmarkasında məhkumların əl iş-



ləri, eləcə də qadınların müxtəlif çeşiddə əl işləri və istehsal etdikləri bal məhsulları da maraqla qarşılanmışdır.

Ordubad rayonundan olan arıçı İsmayıl



Əliyev öz arıçılıq təsərrüfatında tətbiq etdiyi təcrübəni və özünün hazırladığı arı yeşiklərini təqdim etmişdir.




Ali Məclisin Sədri aid qurumlar tərəfindən bu cür təkliflərin dəyərləndirilməsi barədə tapşırıq vermişdir.

Arıçılar Birliyinin sədri Etibar Məmmədov və digər arıçılar minnətdarlıq edərək demişlər ki, arıçılığa göstərilən dövlət qayğısı sayəsində muxtar respublikada arıçılıq özünün inkişaf dövrünü yaşayır. Bu cür tədbirlərin keçirilməsi həm məhsul satışı, həm də arıçılar arasında təcrübə mübadiləsi aparılması baxımından əhəmiyyətlidir.

Satış yarmarkasında baldan hazırlanan müxtəlif şirniyyatların, eləcə də dulusçuluq, ağacişləmə, tikmə nümunələrinin, ana arı yetişdirmə qutularının, termoplastik pətəklərin, ana arı təcridedici qurğuların, arıçıların hazırladıqları müxtəlif əl işlərinin də nümayişi və satışı həyata keçirilmişdir.

Ali Məclisin Sədri ailə təsərrüfatlarına, o cümlədən arıçılara kreditlərin verilməsinin davam etdirilməsi, onların təkliflərinin nəzərə alınması, bu sahədə nəşrlərin artırılması, maarifləndirici tədbirlərin davam etdirilməsi və arıçılıq mədəniyyətinin formalaşdırılması barədə tapşırıqlar vermişdir.

Satış yarmarkası oktyabrın 17-də də davam edib.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvanda mühasiblərin və auditorların VII Avrasiya forumu keçirilib

***Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının və Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin birgə təşkilatçılığı, Avropa və Asiya ölkələrinin nüfuzlu qurumlarının nümayəndələrinin iştirakı ilə Naxçıvanda Mühasiblərin və auditorların VII Avrasiya forumu keçirilib. Forum iştirakçıları tədbirdən öncə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstəsi qoyub, dahi şəxsiyyətə ehtiramlarını bildiriblər. Daha sonra forum iştirakçıları Heydər Əliyev Muzeyini ziyarət ediblər. Muzeyin fondunda ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən eksponatlar qonaqlarda böyük maraq yaradıb.***

Ümumilikdə, 9 ölkənin peşəkar mütəxəssislərinin və yerli qurumların nümayəndələrinin iştirak etdiyi forumda əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Rəfael Əliyev açaraq bildirib ki, audit, mühasibat uçotunun təşkili və aparılması sahəsində muxtar respublikada mühüm tədbirlər həyata keçirilir. Dövlət təşkilatları, hüquqi, fiziki şəxslər tərəfindən mühasibat uçotunun təşkili, aparılması, o cümlədən maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi sahəsində tədbirlər görülərək maliyyə, büdcə, vergi, mühasibat uçotu və audit fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər verilir.



Qeyd edilib ki, bu gün maliyyə və mühasibatlıq sahəsində çalışan işçilərin peşə hazırlığının artırılmasına diqqət yetirilir, Maliyyə hesabatlarının beynəlxalq standartları, mühasibat uçotunun beynəlxalq standartları və uçot qaydalarının tətbiqi ilə bağlı təlim kursları, seminarlar, konfranslar təşkil edilir və digər zəruri tədbirlər həyata keçirilir. Muxtar respublikada maliyyə və mühasibat işi sahəsində çalışanların peşə hazırlığının təkmilləşdirilməsinin təmin edilməsi üçün Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi fəaliyyət göstərir.

Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti, Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının Məsləhət Şurasının üzvü, Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə çıxışında bildirib ki, son 20 ilin statistikası Naxçıvanda iqtisadiyyatın bütün sahələrində dinamik inkişafı bir daha təsdiq edir. Təqdirəlayiq haldır ki, muxtar respublika bu üstünlüyü blokada şəraitində, ölkəmizin 20 faizi işğal altında olduğu bir dövrdə əldə etmişdir. Təbii ki, bütün bunlara ulu öndər Heydər Əliyevin siyasi irsinə sadiqlik, bu xəttin uğurla davam etdirilməsi nəticəsində nail olunub.

Bu forumun təşkilinin ölkələrimiz arasında beynəlxalq əməkdaşlığın inkişafına, maliyyə, uçot və audit sisteminin təkmilləşdirilməsinə kömək edəcəyini vurğulayan Ziyad Səmədzadə bildirib ki, əsas məqsəd qloballaşan dünya iqtisadiyyatında yaranmış vəziyyət, maliyyə resurslarından səmərəli istifadə olunması, idarəetmə sistemində və bütövlükdə, sosial-iqtisadi həyatda şəffaflığın yüksəldilməsi sahəsində peşəkar müzakirələr aparmaq, mövcud problemləri təhlil etmək, beynəlxalq təcrübə nəzərə alınmaqla müvafiq institusional mexanizmlərin fəaliyyət istiqamətlərini dəqiqləşdirmək, bu sahədə beynəlxalq standartların tətbiqi, maarifləndirmə və beynəlxalq əməkdaşlıq üzrə real nəticələr əldə etməkdən ibarətdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri Naim Cahidzadə, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti aparatının İqtisadiyyat şöbəsinin müdiri Zahid Qənbərov çıxış edərək Naxçıvanda keçirilən beynəlxalq forumun ölkənin iqtisadi inkişafının perspektivlərinin müəyyənləşdirilməsi, muxtar respublikanın ölkənin iqtisadi əməkdaşlığında gələcək fəal iştirakı baxımından əhəmiyyətindən bəhs ediblər.

Forumda mühasib və auditorların fəaliyyət prinsiplərinə uyğun 4 panel üzrə mühasibat uçotunun təkmilləşdirilməsində dövlət tənzimlənməsinin rolu, maliyyə hesabatlarında şəffaflıq problemləri, müasir çağırışlar: vergi və maliyyə hesabatlılığı, vergi qanunvericiliyi və maliyyə hesabatlarının beynəlxalq standartları, mühasibat uçotu sahəsində qanunvericilik, maliyyə hesabatlarının beynəlxalq standartlarının tətbiqi və digər mövzuları əhatə edən təqdimatlar olub.

Sonra forum iştirakçıları üçün "Duzdağ" otelində Qala gecəsi təşkil edilib. Qala gecəsində Böyük Britaniyanın Maliyyə Menecerləri İnstitutunun icraçı direktoru Garry Carterin təbriki videoslayd vasitəsilə çatdırılıb, aid sahələr üzrə çalışan peşəkar əməkdaşlara müxtəlif nominasiyalar üzrə mühasibat dünyasının oskarı sayılan, İCB Global tərəfindən Luca Pacolinin şərəfinə təsis edilmiş LUCA– mühasibatlıq, maliyyə və ümumilikdə, iqtisadiyyat sahəsində nailiyyətləri tanıyan və tanıdan beynəlxalq mükafat təqdim olunub. Həmçinin Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının keçirdiyi tədbirlərdə maraqlı təqdimatlar, fəallığı ilə seçilən namizədlərə ayrı-ayrı nominasiyalar üzrə mükafatlar, eyni zamanda xarici ölkə təmsilçilərinə "Fəxri qonaqlar" nominasiyası üzrə hədiyyələr verilib. Naxçıvanın müasir inkişaf salnaməsindən bəhs edilən videoçarx, Naxçıvan Dövlət Filarmoniyasının musiqi kollektivlərinin ifasındakı rəngarəng rəqs və musiqi nömrələri forum iştirakçılarında xoş təəssürat yaradıb.

Mühasiblərin və auditorların VII Avrasiya forumu çərçivəsində



beynəlxalq mühasib təşkilatları ilə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi arasında qarşılıqlı əməkdaşlığa dair memorandum imzalanıb.

Forum iştirakçıları Prezident cənab İlham Əliyevə müraciət ünvanlayıb.

Forum iştirakçıları səfər çərçivəsində Duzdağ Fizioterapiya Mərkəzində olub, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən "Arıçılıq məhsulları-bal satış yarmarkası"nda da iştirak ediblər, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında, "Naxçıvanqala" Tarix-Memarlıq Muzeyi, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə kompleksləri, Batabat yaylağı, Ağbulaq İstirahət Mərkəzi ilə tanışlıq forum iştirakçılarında muxtar respublikamızın tarixi, mədəniyyəti, turizm potensialı barədə zəngin təəssürat yaradıb.

Mühasiblərin və auditorların VII Avrasiya forumunun iştirakçıları "Şərq qapısı" qəzetinə müsahibələrində forumun əhəmiyyəti barədə danışıb, muxtar respublikanın hərtərəfli inkişafından söz açıblar.



***Ziyad Səmədzadə – Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti, Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının (APFM) Məsləhət Şurasının üzvü, Milli Məclisin deputatı, akademik:*** – Respublikamızın və dünyanın bir çox ölkələrinin nümayəndələri, iqtisadçıları ilə birlikdə Naxçıvanda gördüklərimiz bizi çox sevindirdi. Bildiyimiz kimi, Naxçıvan Azərbaycanın çox dinamik inkişaf edən, ildən-ilə sosial-iqtisadi göstəricilərini artıran, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində konkret ciddi addımlar atan bir diyarıdır. Burada böyük quruculuq işlərinin həyata keçirilməsi hamımızın sevincinə səbəb olur. Bu uğurlar Azərbaycanın ümumi iqtisadi inkişafına böyük töhfə verib.

Onu da deyim ki, bu beynəlxalq forum olduqca dəyərlidir. Belə ki, bu gün dünyanı narahat edən ən vacib problemlərdən biri şəffaflıq, korrupsiyaya qarşı mübarizə, uçotun şəffaflığının təmin olunmasıdır. Məhz bu istiqamətdə keçirilən forum Prezident cənab İlham Əliyev tərəfindən respublikamızda müəyyən edilmiş inkişaf strategiyasına, heç şübhəsiz ki, müsbət təsirini göstərəcək.

Naxçıvanlılara bütün bu işlərdə uğurlar arzulayıram. Bu gün biz fəxr edirik ki, qalib ölkənin əməkdaşıyıq. Naxçıvan uzun illər blokadada yaşayıb, çətinliklərlə üzləşib, lakin düşmən naxçıvanlıların iradəsini qıra bilmədi, 44 günlük Vətən müharibəsində erməni faşizmi üzərində parlaq qələbənin qazanılmasında naxçıvanlı igid oğullar böyük qəhrəmanlıqlar göstərdilər. Hesab edirəm ki, bizim bu gəlişimiz çox əlamətdar oldu, heç şübhəsiz, burada gördüklərimiz, şahidi olduğumuz yenilikləri dostlarımıza, bütün Azərbaycan cəmiyyətinə çatdırmaqda da forumun əhəmiyyəti böyükdür. Təbii ki, belə beynəlxalq tədbirin Azərbaycanın bu qədim diyarında təşkilinin dərin əsasları vardır. Əvvəla, burada çox əlverişli ab-hava vardır, Naxçıvanın maliyyə sistemində böyük uğurlar əldə edilmiş, forumda da deyildiyi kimi, muxtar respublikada vergi borcu yoxdur. Bu da o deməkdir ki, burada işə məsuliyyət, şəffaflıq vardır. Şəffaflığın təmin edilməsi üçün muxtar respublika rəhbəri çox böyük işlər görüb. Məhz bütün bu üstün cəhətlərə görə forumun Naxçıvanda keçirilməsi qərara alındı, tədbir çərçivəsində biz yerli nümayəndələrlə yanaşı, xarici mütəxəssislər də bir daha bu diyarın inkişafını əyani surətdə gördü.



***Vahid Novruzov – Azərbaycan Respublikası Auditorlar Palatasının sədri:*** – Biz, bütün forum iştirakçıları, bütövlükdə, şəffaflıq probleminə, maliyyə hesabatlarının təkmilləşdirilməsinə həsr olunmuş çoxsaylı, maraqlı məruzələr dinlədik. Onu da qeyd edim ki, təşkilatımızın iştirakı ilə Naxçıvan şəhərində artıq bu, keçirilən üçüncü forumdur. Birinci seminar-müşavirə 2002-ci ildə reallaşıb. Sonrakı illərdə Naxçıvanda şəffaflığın artırılmasına, auditor xidmətinin inkişafına böyük diqqətin yetirilməsinin şahidi olmuşuq. Aparılan tədqiqatlar da göstərir ki, möhtərəm Prezidentimizin ***"Şəffaflıq, dürüstlük hər bir dövlət məmuru üçün həyat tərzi olmalıdır"*** fikrinin reallaşması istiqamətində işlər muxtar respublikada uğurla həyata keçirilir. Biz auditorlar palatası olaraq muxtar respublikada auditor xidmətinin inkişafı ilə əlaqədar öz səlahiyyətlərimiz daxilində kadr hazırlığında, metodik təminatda lazımi köməkliyimizi göstəririk və hesab edirəm ki, bundan sonra bu istiqamətdə iş daha sistemli, daha ardıcıl şəkildə həyata keçiriləcək.



***Mehriban İmanova – Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin direktoru:*** – Bu gün bütün naxçıvanlıların həyatında olduqca əlamətdar günlərdən biridir. Diyarımız növbəti beynəlxalq tədbirə yüksək səviyyədə ev sahibliyi edir. Mühasiblərin və auditorların VII Avrasiya forumu öz maraqlı müzakirələri, əhəmiyyətliliyi ilə yaddaşlarda qalacaq. Forumun əsas məqsədi Azərbaycanda mühasibat uçotu və auditin inkişafına təkan vermək, aktual məsələlərlə bağlı geniş təcrübə mübadiləsi aparmaqdan ibarətdir.

***Tata Beridze – Gürcüstanın Mühasiblər Birliyinin direktoru, Gürcüstan Maliyyəçilər və Mühasiblər İnstitutunun sədri, ICFM & ICB-nin Gürcüstanda nümayəndəsi:***

– Forum çərçivəsində Azərbaycanın bu qədim diyarı ilə yaxından tanış olmaq imkanımız yarandı. Biznes Mərkəzində



panellərarası fasilədə müşahidə etdiklərimə əsasən deyə bilərəm ki, muxtar respublikanın güclü iqtisadi imkanları vardır, istehsal olunan məhsulların müxtəlifliyi buradakı geniş biznes mühitindən xəbər verir. Naxçıvan həm qədim tarixi, həm müasir görkəmi, fərqli landşaftı ilə böyük marağımıza səbəb oldu. Forumun "Arıçılıq məhsulları-bal satış yarmarkası"na təsadüf etməsi də çox gözəl oldu, yarmarkada sərgilənən arıçılıq məhsulları bir-birindən maraqlı idi. Dəvət üçün, tədbirin təşkilinə görə minnətdarlığımı bildirirəm.



***Nuriyyə Novruzova: – Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının sədri:*** – Bir peşəkar mühasib təşkilatı kimi uzun müddətdir, belə beynəlxalq tədbirlər keçiririk. Fikirləşdik ki, VII forum məhz Naxçıvanda reallaşdırılsın. Tədbir xarici qonaqlarımızın Naxçıvanla yaxından tanış olmaları üçün böyük fürsət yaratdı, onlar bu qədim diyarımızın bütün gözəlliklərini öz gözləri ilə gördülər. Forumun yüksək səviyyədə təşkilatı görə, bizimlə birgə bu işə böyük dəstək verdiyi üçün muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm.

"Eyni mədəniyyətin, dilin, oxşar adət-ənənələrin olduğu bu şəhər, həqiqətən, insanda bir doğmalıq hissi yaşadır", – deyən müsahibimiz, ***Gülgün Öztürk***ün də forum təəssüratları zəngindir: – Artıq iki gündür, Naxçıvandayıq. Bura ilk dəfədir,



gəlməyimə baxmayaraq, bizə olan səmimi yaxınlığın, qonaqpərvərliyin müqabilində heç bir özgəlik hiss etmirəm. Səfərimiz çərçivəsində Naxçıvanın tarixi abidələrinə ekskursiyalar etdik. Şəhərə daxil olduğumuz andan ilk diqqətimi cəlb edən şey şəhərin təmiz və çox sakit olması idi. Bununla yanaşı, bir-birindən maraqlı və fərqli dizaynda park və xiyabanların olması, hər tərəfdə abadlıq-quruculuq işlərinin aparılması da insanda xoş təəssüratlar yaradır. Burada adını çox eştdiyim, lakin səfər çərçivəsində tanış olduğum Duzdağ isə Uca Yaradanın Naxçıvana verdiyi ən gözəl nemətdir.

Türkiyə və Azərbaycan respublikalarının tarixi sarsılmaz dostluq əlaqələrindən söhbət açan müsahibimiz ***Hakan Ustabaşı*** deyir ki, bu gün ölkələrimiz arasındakı



əlaqələrin inkişafında Naxçıvan Muxtar Respublikasının mühüm yeri vardır. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin yaxın bölgələri arasında iqtisadi-ticarət, təhsil, səhiyyə, turizm, mədəniyyət, ordu quruculuğu və nəqliyyat sahələrində əlaqələr uğurla inkişaf etdirilir. Mədəniyyətin beşiyi hesab etdiyimiz Naxçıvanla bağlı fikirlərimiz çox yüksəkdir. Artıq layihənin son günündəyik və bu maraqlı şəhərdən ayrılacağım üçün, sözün əsl mənasında, təəssüflənirəm. İnsanların qonaqpərvərliyi, mədəniyyətləri, düşüncə tərzinin üst-üstə düşməsi insanı sevindirir.

Müsahibimiz Rusiya vətəndaşı ***Aksana Saxnaçkaya***nın dediklərindən: – Başdan-başa gözəlliklərlə dolu olan bu



şəhərə ilk dəfədir, gəlirəm. İnanmazdım ki, bu iki gün müddətində bu qədər gözəl və maraqlı hadisələrin şahidi ola biləcəyəm. Burada maraqlı ekskursiyaların təşkil edilməsi səfərimizə başqa bir abhava qatdı, günümüz rəngarəng keçdi. Ekskursiya zamanı məndə ən çox maraq yaradan abidə isə Möminə xatın türbəsi oldu. İnsanı heyrətləndirən ən üstün məqam isə sözügedən abidənin əsrlərin, yüz illərin süzgəcindən keçərək müasir dövrümüzə gəlib çıxmasıdır. Gözəllik və cəlbediciliyi Naxçıvanın hər yerində görmək mümkündür.

Türkiyə vətəndaşı ***Müslüm Yılmaz Taner*** deyir ki, Azərbaycanın ən qədim şəhərlərindən biri olan Naxçıvana etdiyimiz bu səfər çərçivəsində bizimlə birlikdə doqquz ölkənin nümayəndələrinin iştirak etməsi



də onu göstərir ki, Azərbaycanın dünya ölkələri ilə apardığı genişmiqyaslı siyasi əlaqələr bu gün də özünün ən uğurlu inkişaf yolundadır. Xalqlarımızın, ölkələrimizin bu bağlılığı hər iki dövlət başçılarının çıxışlarında da hər zaman təsdiqlənir. İnanırıq ki, bu qədim və mədəniyyət nümunələri ilə zəngin olan diyar bunun kimi neçə-neçə uğurlu birgəliklərə, indi olduğu kimi bir çox taleyüklü təşəbbüslərə imza atacaq. Belə gözəl tədbirin təşkilinə görə bütün layihə iştirakçıları adından öz dərin minnətdarlığımı bildiririk.

**Nail ƏSGƏROV**
**Məcid RƏŞADƏTOĞLU**

*“Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən və iki gün davam edən “Arıçılıq məhsulları-bal satış yarmarkası”nda ilk görüşdüyümüz ömrünün 20 ildən çoxunu arıçılığa həsr edən, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dekanı, dosent Elsevər Əsədov oldu. Öyrəndik ki, o, yarmarkaya müxtəlif arıçılıq məhsulları çıxarıb. Hər il ənənəvi olaraq keçirilən belə tədbirlərdə iştirak edən müsahibim Ali Məclis Sədrinin arıçılıqla bağlı işıq üzü görən elmi nəşrlərlə, ədəbiyyatlarla yaxından maraqlandığını, görülən işlərə böyük qayğı ilə yanaşdığını, verilən tapşırıq və tövsiyələrin onların işində çox vacib rol oynadığını diqqətə çatdırdı.*

# Bal ətirli yarmarkadan şirin və xoş təəssüratlar



Məlumat üçün bildirək ki, yarmarkaya, ümumilikdə, 6 tondan çox məhsul çıxarılmışdı. Buraya həm məhsul çıxaran, həm də alıcı kimi gələn həmyerlilərimizlə söhbətlərimizdə bir məqam, xüsusilə vurğulandı ki, təsərrüfatın iqtisadi cəhətdən sərfəli, sağlamlıq üçün böyük faydası olan arıçılığın inkişafına muxtar respublikada böyük önəm verilməklə yanaşı, həm də münbit şərait mövcuddur və bu şəraitdən səmərəli istifadə olunur. Bunu yarmarkaya ölkəmizin digər yerlərindən və xarici ölkələrdən gəlmiş əcnəbi qonaqlar da yüksək dəyərləndirdilər.

Bakı şəhərindən diyarımıza qonaq gələn *Günay Məcnunlu* öz təəssüratlarını bizimlə belə bölüşdü: – Naxçıvana ilk dəfədir, gəlirəm. Və bu gün burada olduğum, şan-şöhrətini tez-tez eşitdiyim Naxçıvan balının dadına baxmaq imkanı qazandım. Yüksək təşkilatçılıq, məhsulların çeşid çoxluğu, ən əsası isə qonaqpərvərlik məndə xoş hisslər yaratdı.



“Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi ilə də tanış olmaq imkanı əldə etdim. Festivalların keçirilməsi üçün belə bir məkanın seçilməsi çox gözəldir.

Yarmarkada iştirak edən Türkiyə vətəndaşları *Erkan* və *Aslı Güvən* bildirdilər ki, Naxçıvana səfərimizin bal yarmarkasına təsadüf etməsinə çox sevindik. Qardaş ölkənin insanlarında olan ruh yüksəkliyi, adət-ənənələrə bağlılıq, milli dəyərlərə ehtiram çox yüksək səviyyədədir. Naxçıvan balından da daddıq. Bu balı yeyərkən insan çiçəklərin ətrini hiss edir. Bu bizim muxtar respublikaya ilk gəlişimizdir. Dünyanın 15-dən çox ölkəsində olmuşuq. Naxçıvanda da turistlərin səfəri üçün çox maraqlı yerlər vardır. Burada iki gün qalmaq istəyirdik, amma insanların səmimiliyi, yurdunuzun gözəlliyi, sakitlik bizi çox valeh etdi. Ona görə də burada bir həftə qalmaq fikrindəyik. Naxçıvan çox təmiz, abad şəhərdir. İnsanları gülərüz və mehribandır. Burada olduğumuz müddətdə tarixi məkanları görmək, milli mətbəxinizlə tanış olmaq fikrimiz var. Artıq Duzdağ Fizioterapiya Mərkəzi və şəhərinizdə yerləşən tarixi abidələrlə tanış olmuşuq.

Əlincəqalaya getmək fikrimiz var. Ordubadda olarkən oradakı tarixi məkanları gördük, yeməklərdən, quru meyvələrdən daddıq. Balla qarışdırılmış Ordubad cəvizinin, müxtəlif kababların, plovun da dadına baxdıq, çox ləzzətlə yedik. Onu da, xüsusilə vurğulayım ki, bir çox ölkələrdə, adətən, böyük şəhərlərin mərkəzi küçələri təmiz olar. Amma burada vəziyyət tamam başqadır. Həm şəhər mərkəzi, həm də ən ucqar kəndlər belə, tərtəmizdir. Sədərəkdən Naxçıvan şəhərinə doğru gəldikcə yolboyu gülkarlıqlar, ağaclıqlar göz oxşayır. Bir sözlə, bu diyar bir möcüzədir. Bizə yüksək təəssüratlar yaşadan Duzdağ möcüzəvi yer olması ilə bərabər, həm də şəfa mənbəyidir. Bundan əlavə, Naxçıvan şəhərindəki muzeylərlə də tanış olmuşuq. Bir sözlə, buranın təbiəti, suyu, havası, insanları bizi valeh etdi. Belə yarmarkaların keçirilməsi isə gözəl ənənədir.

*Sürəyya Tamər* bu qədim diyara təhsil ocaqlarımızla tanış olmağa gəlib. O deyir: – Yaxın qonşularımızın övladları burada müxtəlif ixtisaslarda təhsil alırlar. Mən də qız övladımın Naxçıvanda



təhsil almasını istəyirəm. Ona görə də yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır, – deyib gəldim. Eşitdiklərimdən daha da yaxşısını görmək qürurvericidir. Tarix müəllimi olan müsahibimiz onu da deyir ki, universitetləriniz çox gözəl və yüksək səviyyədədir. Böyük məmnuniyyətlə qızımı buraya göndərəcəyəm. Bütün dünyada hərc-mərcliyin hökm sürdüyü bir vaxtda bura elə sakitdir ki, insan özünü cənnətə düşmüş kimi hiss edir. Övladımı çox rahatlıqla bu yurda əmanət edəcəyəm. Milli dəyərlərə və keçmişinə hörmət, təmizlik və sabitlik, tarix və müasirlik deyəndə gözümdə hər zaman Naxçıvan canlanacaq. Bu gün keçirilən yarmarkadan isə xüsusilə zövq aldım. Məni ən çox təsirləndirən tanımadığım insanların qonaqpərvərliyi oldu. Hansı rayonun stendinə yaxınlaşdıq, qonaq olduğumuzu bilən kimi əllərindən gələni etmək istədilər. Balın dadına baxdım və çox bəyəndim. Dadı da, rəngi də çox gözəldir balınızın.

Belə bir yarmarkanın tarixi bir yerdə – “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilməsi isə təqdirəlayiqdir. Qardaş ölkənin bir parçası olan bu tarixi diyar onu sevən insanların əllərində, mən əminəm ki, gələcəkdə bundan da gözəl olacaq.

*Bal kimi yarmarkadan aldığımız təəssüratlar belə oldu. Təsərrüfatçıya diqqət, qayğı olan yerdə ən gözəl, təbii, yerli məhsullar əldə edilir ki, bu da həmin diyarın inkişafından xəbər verir. Bəli, Naxçıvanımız günü-gündən daha da inkişaf edir, burada zəhmətkeş insanların ərsəyə gətirdikləri məhsullar bazara mühüm töhfə verir. Dadı, görünüşü və keyfiyyəti ilə seçilən arıçılıq məhsulları da, bu mənada, çox mühüm rol oynayır.*

**Ramiyyə ƏKBƏROVA**
**Güntac ŞAHMƏMMƏDLİ**
**Aytac CƏFƏRLİ**

# Növbəti əmək yarmarkası olub



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrasına uyğun olaraq muxtar respublikada əmək yarmarkalarının keçirilməsi davam etdirilir.

Növbəti əmək yarmarkası oktyabr ayının 18-də Ordubad rayonunda keçirilib. Qeyd edək ki, sözügedən tədbirə, işaxtaranlarla yanaşı, hərbi xidmətdən yeni tərxis olunmuş gənclər də dəvət olunub. Hərbi xidmətdən yeni tərxis olunmuş gənclərə onların vakant iş yerlərinə göndərilməsi, müvafiq peşə və ixtisaslara yiyələnməsi üçün peşə hazırlığı kurslarına cəlb olunması, əmək bazarına inteqrasiyası və rəqabət qabiliyyətinin artırılması və özünüməşğulluqlarının həyata keçirilməsi ilə bağlı məlumatlar verilib.

Əmək yarmarkasında işaxtaranlara, ümumilikdə, 21 müəssisədən 185 boş iş yeri təqdim edilib. Nəticədə, 15 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 11 nəfərin isə özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyatı aparılıb. Həmçinin əmək yarmarkasında peşə hazırlığı kurslarına 3 nəfərin qeydiyyatı aparılıb ki, onlardan 2 nəfərini hərbi xidmətdən tərxis olunmuş gənclər təşkil edib.

Qeyd edək ki, növbəti əmək yarmarkası oktyabrın 19-da Naxçıvan şəhərində keçiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Gənclər şəhid ailələrini ziyarət ediblər



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının birgə təşkilatçılığı ilə bir qrup könüllü gənc tərəfindən Şərur rayonunda yaşayan şəhid ailələri ziyarət olunub. Tədbir iştirakçıları şəhidlərimiz mayor Vüsal Vəliyevin və leytenant Kamal Əbilovun ailə üzvləri ilə görüşüb, qəhrəman şəhidlərimizin keçdiyi döyüş yolundan, qəhrəmanlıqlarından söz açıblar. İştirakçılar şəhidlərimizin xatirə guşəsi, təltif edildikləri orden və medallarla tanış olublar.

Gənclər və idman nazirinin müavini, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Məcid Seyidov və Milli Məclisin deputatı, Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev görüşlər zamanı şücaətli, cəsur, eyni zamanda vətənpərvər övlad yetişdirdikləri üçün şəhid valideynlərinə dərin minnətdarlıqlarını bildiriblər. Vurğulanıb ki, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı şanlı qələbə dövlət-xalq-ordu birliyinin parlaq təcəssümüdür. Ölkəmizdə, eləcə də onun ayrılmaz hissəsi olan muxtar respublikada ordu quruculuğuna xüsusi diqqət yetirilir. Bunun nəticəsidir ki, Azərbaycan Ordusu yüksək hazırlıqlı, peşəkar zabit və əsgər heyəti ilə hərb tarixinə qızıl hərflərlə yazılan uğurlu döyüş əməliyyatları keçirdilər. Bildirilib ki, qəhrəman övladların – şəhidlərimizin həyatı, keçdiyi döyüş yolu hər vətəndaşa, xüsusilə də gənclərimizə örnəkdir.

Görüşlərin ardından şəhid məzarları ziyarət edilib, onların ruhuna dualar oxunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Strateji əhəmiyyətli obyektlərin fövqəladə hallara hazırlıq vəziyyəti yoxlanılır



*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən “Dekor Qrup” Məhdud Məsuliyyətli Cəmiyyətində “Obyektdə baş verən yanğının söndürülməsi, bununla bağlı xilasetmə və digər təxirəsalınmaz işlərin aparılması” adlı taktiki-xüsusi təlim keçirilib.*

Təlimin keçirilməsində məqsəd “Dekor Qrup” Məhdud Məsuliyyətli Cəmiyyətinin fövqəladə hallara hazırlıq vəziyyətinin yoxlanılması, müəssisə əməkdaşlarının praktik bacarığının təkmilləşdirilməsidir.

Plana uyğun olaraq birinci mərhələdə cəmiyyətin fövqəladə hallarda fəaliyyət planının reallığı, mülki müdafiə qüvvə və vasitələrinin hazırlıq səviyyəsi yoxlanılıb, müəssisənin könüllü yanğınsöndürmə dəstəsinin şəxsi heyətindən “Tam döyüş açılışı” normativləri üzrə məqbullar qəbul edilib.

İkinci mərhələdə isə istehsalat sahələrində şərti baş verən yanğınların qarşısı alınaraq söndürülüb, yanğın zonasından işçilər və maddi vəsaitlər təxliyə olunub, xəsarət alanlar xilas edilib, onlara tibb məntəqəsində ilk tibbi yardımın göstərilməsi təmin edilib.

Taktiki-xüsusi təlimə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin 5 xüsusi təyinatlı avtomobili, 24 nəfərlik şəxsi heyəti, “Dekor Qrup” Məhdud Məsuliyyətli Cəmiyyətinin isə 46 nəfərdən ibarət mülki müdafiə qüvvələri cəlb olunub.

Təlim təhlükəsizlik qaydalarına əməl edilməklə başa çatdırılıb və qarşıya qoyulan məqsədlərə nail olunub.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

# Yoldaşlıq görüşləri keçirilib



Naxçıvan şəhərindəki 16 nömrəli tam orta məktəbin mini futbol meydançasında dostluq və idman əlaqələrinin gücləndirilməsi məqsədilə Naxçıvan Şəhər və Şərur Rayon Uşaq-Gənclər İdman məktəblərinin 10 və 11 yaşlılardan ibarət komandaları arasında minifutbol üzrə yoldaşlıq görüşü keçirilib.

Yoldaşlıq görüşünün keçirilməsində məqsəd uşaq futbolunun inkişafına töhfə vermək, oyunçuların ustalıq səviyyəsini yüksəltmək və bu növdə kütləviliyə nail olmaq idi. Yarış Naxçıvan Şəhər və Şərur Rayon Gənclər və İdman idarələri, Təhsil şöbələri və Uşaq-Gənclər İdman məktəbləri tərəfindən birgə təşkil edilmişdir.

Görüşün yekununa gəlincə isə 10 yaş qrupunda Şərur təmsilçiləri 2:0 hesablı qələbə qazanıblar. 11 yaşlıların oyununda isə şəhər komandası 4:1 hesablı qələbəyə sevinib.

Qaliblərə diplomlar təqdim olunub.

* * *



“Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!” devizi altında Şərur Rayon və Naxçıvan Şəhər Uşaq-Gənclər İdman məktəblərinin kiçikyaşlı və yeniyetmə idmançıları arasında sərbəst güləş üzrə yoldaşlıq görüşü keçirilib.

Şərur rayonunda təşkil olunan görüşdə 64 idmançı 2 yaş qrupunda 32 çəki dərəcəsində döşək üzərinə çıxıb. Dünya Güləş Birliyinin mövcud qaydaları ilə keçirilən görüşün yekununa əsasən kiçikyaşlı yeniyetmələr arasında 17:5 hesabı ilə “Naxçıvan” komandası, yeniyetmələr arasında isə 7:3 hesabı ilə “Şərur” komandası qalib gəlib.

Sonda hər iki komandanın qalib və fərqlənən üzvləri diplomlarla mükafatlandırılıb.

**Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Novruzov Novruz Valeh oğlunun adına İğdır Universiteti tərəfindən verilmiş diplom itdiyindən etibarsız sayılır.

***

Cəlalov Cəlal Qəhrəman oğlunun adına olan 303A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Türkiyə vətəndaşı Cahit Ürperə məxsus kimlik itdiyindən etibarsız sayılır.

***

Məmmədova Aysel Təyyar qızının adına “Naxçıvan” Universiteti tərəfindən verilmiş diplom itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 866